| Rövnəq Abdullayev | |
|---|---|
| Rövnəq İbrahim oğlu Abdullayev 2018-ci ildə. | |
| **ARDNŞ-nin Prezidenti** | |
| 10 noyabr 2005 — hal-hazırda | |
| **Prezident** | İlham Əliyev |
| **Sələfi** | Natiq Əliyev |
| **Azərbaycan Milli Məclisinin III, IV və V çağırış deputatı** | |
| 6 noyabr 2005 — h.h. | |
| **AFFA-nın Prezidenti** | |
| 14 mart 2008 — h.h. | |
| **ACF-nin Prezidenti** | |
| 4 sentyar 2015 — h.h. | |
| **Şəxsi məlumatlar** | |
| **Partiya** | Yeni Azərbaycan Partiyası |
| **Təhsili** | M.V.Lomonosov adına Moskva Dövlət Universiteti |
| **Doğum tarixi** | 3 aprel 1965 (56 yaş) |
| **Doğum yeri** | Naxçıvan, Naxçıvan MSSR, Azərbaycan SSR, SSRİ |
| **Uşaqları** | Rəşad, Sevinc |
| **Təltifləri** | |

**Rövnəq İbrahim oğlu Abdullayev** (3 aprel 1965, Naxçıvan) — Azərbaycan dövlət və siyasi xadimi, ARDNŞ-nin Prezidenti (2005—), Azərbaycan Milli Məclisinin III, IV və V çağırış deputatı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) və Azərbaycan Cüdo Federasiyasının (ACF) Prezidenti.

## Həyatı

Rövnəq İbrahim oğlu Abdullayev 1965-ci il aprelin 4-də Naxçıvan şəhərində anadan olub.

Rövnəq Abdullayev 1982-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olub. 1983–1985-ci illərdə Sovet Ordusunda hərbi xidmətdə olan Rövnəq Abdullayev, 1985-ci ildə V. V. Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutuna transfer olunub və 1989-cı ildə həmin institutu bitirib.

## Fəaliyyəti

Rövnəq Abdullayev 1989–1997-ci illərdə "Neft Daşları" Neft-Qaz Çıxarma İdarəsi (NQÇİ) və "28 May" NQÇİ-də, habelə "Xəzərdənizneftqazinşaat" Trestinin inşaat-quraşdırma idarəsində şöbə rəisi, mühəndis və baş mühəndis vəzifələrində çalışıb.

1997–2003-cü illərdə "Xəzərdənizneftqazinşaat" Trestinin müdiri vəzifəsində çalışan Rövnəq Abdullayev, 2003–2004-cü illərdə Heydər Əliyev adına Neft Emalı Zavodunun rəhbəri olub.

2004-cü ildə "Neftçi" Futbol Klubunun Prezidenti seçilən Rövnəq Abdullayev, 2005-ci il noyabrın 6-da baş tutan Azərbaycan Milli Məclisinə III çağırış seçimlərə qatılıb. 24 saylı Nizami 1-ci dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi olan Rövnəq Abdullayev, seçimdə qalibi gəldi və Milli Məclisin üzvü oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin 10 noyabr 2005-ci il tarixli 1147 nömrəli Sərəncamı ilə Rövnəq Abdullayev, ARDNŞ Prezidenti vəzifəsinə təyin edilib.

2008-ci il martın 14-də 4 il müddətinə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) Prezidenti seçilən Rövnəq Abdullayev, Neftçi FK-nın Prezidenti vəzifəsindən istefa verdi.

Rövnəq Abdullayev 2010-ci il noyabrın 7-də baş tutan Azərbaycan Milli Məclisinə IV çağırış seçimlərədə qatılıb. 24 saylı Nizami 1-ci dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi olan Rövnəq Abdullayev, yenə seçimdə qalibi gəldi.

2012-ci il martın 10-da Rövnəq Abdullayev növbəti dəfə 4 il müddətinə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) Prezidenti seçilib.

2015-ci il sentyabrın 4-də isə Azərbaycan Cüdo Federasiyasının (ACF) Prezidenti seçilən Rövnəq Abdullayev, 2015-ci il noyabrın 1-də baş tutan Azərbaycan Milli Məclisinə V çağırış seçimlərədə qatıldı. 24 saylı Nizami 1-ci dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi olan Rövnəq Abdullayev, üçüncü dəfə seçimdə qalibi gəlib.

2016-cı il martın 11-də Rövnəq Abdullayev üçüncü dəfə 4 il müddətinə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) Prezidenti seçilib. Rövnəq Abdullayev 2020-ci ilin dekabr ayından etibarən SOCAR Türkiyə ilə yanaşı, şirkətin törəmə müəssisələri olan "Petkim" və STAR NEZ-in İdarə Heyəti sədri vəzifələrini icra etməyə başlayıb.

## Təltifləri

| Sıra | Təltif | | |
|---|---|---|---|
| 1. | | "Şöhrət" ordeni | Azərbaycan |
| 2. | | "Şərəf" ordeni | Gürcüstan |